**“Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli, 91 nömrəli qərarına əlavələr edilməsi haqqında**

**Azərbaycan RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN Qərarı**

«Əhalinin və iqtisadiyyatın enerjidaşıyıcıları ilə təminatının yaxşılaşdırılması tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 iyun tarixli, 356 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli, 91 nömrəli qərarına aşağıdakı əlavələr edilsin:

qərarın 1 nömrəli əlavəsində 27-ci mal qrupunda 1-ci sütunda «270900900» mal mövqeyindən, 2-ci sütunda onun adından və 3-cü sütundakı gömrük rüsumu dərəcəsindən sonra 1-ci, 2-ci və 3-cü sütunlarda müvafiq olaraq «271111000» rəqəmi, «Təbii qaz» sözləri və «0» rəqəmi əlavə edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 6 iyul 2000-ci il**

**№ 112**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2996.**